# Taekvondo üzrə açıq xatirə turniri

Qəbələ rayon Gənclər və İdman idarəsi “Qəbələ” Taekvondo bölməsi ilə birlikdə ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr edilmiş yeniyetmə və gənclər arasında taekvondo idman növü üzrə Qəbələ rayonunda açıq xatirə turniri keçirmişdir. Turnir 05—06 dekabr 2015-ci il tarixdə “Qafqaz” Sport otelin idman zalında baş tutmuşdur. Turnirdə Qəbələ, Bakı, Sumqayıt, Ağdaş, Şamaxı, Kəlbəcər, Cəbrayıl və Ağsu rayonundan olan 10 komanda üzrə 160 idmançı iştirak etmişdir.

Yarışın keçirilməsində əsas məqsəd ümummilli lider Heydər Əliyevin müasir Azərbaycanımızın inkişafı yolunda gördüyü işləri, hər bir sahədə olduğu kimi idman sahəsində apardığı islahatları ictimaiyyətə çatdırmaq, həmçinin taekvondo idman növünün respublikada inkişafına nail olmaq, yeniyetmə idmançılarda yarış təcrübəsini və ustalığı inkişaf etdirmək, taekvondo üzrə rayon yığma komandasının tərkibini müəyyən etməkdən ibarətdir.



Turnirin açılış mərasimində ümummilli lider Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, Qəbələ Rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov və “Qəbələ” taekvondo bölməsinin baş məşqçisi Xəyal Əzizov respublikada idmana və idmançılara göstərilən dövlət qayğısından danışaraq yarış iştirakçılarına uğurlar arzulamışlar.

Açılış mərasimindən sonra meydan birincilik uğrunda mübarizəyə başlayan idmançıların ixtiyarına verildi. Yarışda yeniyetmə oğlan və qızlar gərgin mübarizə aparmışlar. Yarış mövcud beynəlxalq qaydalara əsasən keçirilmişdir.

Taekvondo üzrə Qəbələ rayon açıq turnirinin yekununda hər çəki üzrə qalib gəlmiş (I, II, III yerləri tutmuş) idmançılara diplomlar təqdim edilmişdir.

**Elçin Osmanov,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**
**Foto İlkin Vəlizadənindir.**

# Qəbələyə ilk qar yağdı



***Foto-etüd İlkin Vəlizadənindir.***

İlk qar azacıq gecikəndə böyükdən kiçiyə hamı narahat olmağa başlayır. Amma ilk qar yağdıqda uşaqların sevinci hədsiz olur. Böyüklər qarın bolluq və xeyir-bərəkətin təməlini qoyduğunu, təmizlik və sağlamlıq gətirdiyini bilərək qışın qarlı olmasını istəyirlər. Əkinçilər isə qarı əkinlərin yorğanı adlandırırlar.

Qar həm də gözəllikdir. Onun kənddə öz füsunkarlığı, şəhərdə isə öz yaraşığı var. Rayonumuzun mərkəzinə qar xüsusi bir cazibədarlıq gətirir. Əsasən də şəhərin park və xiyabanlarının hüsnü gözəl bir görkəm alır. Bu il Qəbələyə ilk qar dekabr ayının 3-də yağdı. Özü ilə yenə də gözəllik, sevinc və xoş əhval-ruhiyyə gətirdi. Amma qışla zarafat etmək olmaz. Məlum olduğu kimi Qəbələdə qış uzunömürlü olur, qarın qalınlığı bəzi bölgələrdə 70-80 sm-ə çatır. Qışın sınağından çıxmaq insanların öz bacarığından asılıdır. Eyni zamanda şəhər təsərrüfatını qışa hazırlayan, bu fəsildə insanların rahat və təhlükəsiz yaşamasına cavabdeh olan qurumların üzərinə məsul vəzifələr düşür.

**Aslan Cəlilov.**

# Əhalinin nəzərinə

**Qəbələ Rayon İcra Hakimiyyəti əhalinin nəzərinə çatdırır ki, şəhərimizin su və kanalizasiya sisteminin yenidən işlənməsi ilə əlaqədar bütün küçələrdə qazıntı işləri aparılır. Bununla əlaqədar olaraq avtomobillərin hərəkətində çətinlik yarandığı üçün şəxsi avtomobillərdən az istifadə olunması xahiş olunur.**

## Əmirvan Kənd İnzibati Ərazi Nümayəndəliyi 2016-cı il üçün katirovka sorğusu ELAN EDİR

1. Əmirvan kənd uşaq bağçası üçün ərzaq məhsullarının alınması.

Katirovka sorğusu üçün sənədlər **yanvar ayının 5-dək** qəbul olunur.

## Həmzəli Kənd İnzibati Ərazi Nümayəndəliyi 2016-cı il üçün katirovka sorğusu ELAN EDİR

1. Həmzəli kənd uşaq bağçası üçün ərzaq məhsullarının alınması.

Katirovka sorğusu üçün sənədlər **yanvar ayının 5-dək** qəbul olunur.

## Tikanlı Kənd İnzibati Ərazi Nümayəndəliyi 2016-cı il üçün katirovka sorğusu ELAN EDİR

1. Tikanlı kənd uşaq bağçası üçün ərzaq məhsullarının alınması.

Katirovka sorğusu üçün sənədlər **yanvar ayının 5-dək** qəbul olunur.

## Bayramkoxalı Kənd İnzibati Ərazi Nümayəndəliyi 2016-cı il üçün katirovka sorğusu ELAN EDİR

1. Bayramkoxalı kənd uşaq bağçası üçün ərzaq məhsullarının alınması.

Katirovka sorğusu üçün sənədlər **yanvar ayının 5-dək** qəbul olunur.

# Müdrik deyimlər

✤Əxlaq elə bir güzgüdür ki, burada hər kəs öz simasını görür.

**İ. V. Höte.**

✤Oxumaq hələ azdır— əsas iş nəyi oxumaq və oxuduğunu necə anlamaqdır.

**K. D. Uşinski.**

✤İnsanın siması onun daxili aləmini əks etdirir.

**V. Hüqo.**

✤Dili doğru olanın xətası az olar.

**M. T. Sidqi.**

✤Bədbəxt o adama deyirlər ki, başqasına yaxşılıq etməyi bacardığı halda etməsin.

**A. A. Bakıxanov.**

✤Ağıl düzgün yol göstərənə mayakdır. Kim bu mayakdan ağıllı istidə etməyi bacarırsa, onun yolu həmişə işıqlı olur.

**A. Düma.**

## Böyük Əmili Kənd İnzibati Ərazi Nümayəndəliyi 2016-cı il üçün katirovka sorğusu ELAN EDİR

1. Böyük Əmili kənd uşaq bağçası üçün ərzaq məhsullarının alınması.

Katirovka sorğusu üçün sənədlər **yanvar ayının 5-dək** qəbul olunur.

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası FHN Şimal-qərb Regional Mərkəzinin kollektivi iş yoldaşları **İlkin Qəribliyə,** dayısı

**ASLAN BALAKİŞİYEVİN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

# ELANLAR

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 19 yanvar 1998-ci il tarixli 13 saylı qərarla Şamlı kənd sakini **Şəfiyev Yaşar Məhəmməd oğlunun** və ailə üzvlərinin adına verilmiş JN 082A nömrəli (kodu 40604068) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 fevral 2001-ci il tarixli qərarla **Qəbələ şəhər sakini Musabəyova Əzizə Mütət qızının** adına verilmiş JN-424F №-li (kod 40601004) olan **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 fevral 2001-ci il tarixli 03 saylı qərarla Qəbələ şəhər sakini **Məsimov Qüdrət Məsim oğlunun və ailə üzvlərinin** adına verilmiş JN 1595 F №-li (kodu 40601004) olan **Torpağın mülkiyyətə verilməsinə aid Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Nazirlər Kabineti Yanında Daşınmaz Əmlakın Dövlət Reyestr Xidməti Hüquqların Dövlət Qeydiyyatı Haqqında Daşınmaz Əmlakın Dövlət Reyestrindən 02 oktyabr 2006-cı il tarixdə Vəndam qəsəbə sakini **İsmayılov İsmayıl Şamil oğlunun və ailə üzvlərinin** adına verilmiş 0001368 №-li **çıxarışın** (reyestr №-406013000338, qeydiyyat №190601154) itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 7 noyabr 1997-ci il tarixli 19 saylı qərarla Qəbələ şəhər sakini **Kərimov Nurəddin Süleyman oğlunun və ailə üzvlərinin** adına verilmiş JN-270F N-li (Kod-40604024) olan **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi:
A. C. Cəlilov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.
Oxucu məktubları geri qaytarılmır.